**“Tikinti obyektlərinin enerji səmərəliliyinin artırılması və enerji resurslarına qənaət edilməsi üzrə Qaydalar”ın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 1.6.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Tikinti obyektlərinin enerji səmərəliliyinin artırılması və enerji resurslarına qənaət edilməsi üzrə Qaydalar” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 11 mart 2014-cü il
№ 73

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin
2014-cü il 11 mart tarixli 73 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Tikinti obyektlərinin enerji səmərəliliyinin artırılması və enerji resurslarına qənaət edilməsi üzrə**

**Q A Y D A L A R**

**1. Ümumi müddəalar**

1.1. Bu Qaydalar “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimlənmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 1.6.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və enerji resurslarına qənaət edilməsi və enerji səmərəliliyi üzrə tikinti obyektlərinin layihə sənədlərinə olan ümumi tələbləri müəyyən edir.

1.2. Bu Qaydalar aşağıda göstərilən tikinti obyektlərinə şamil olunmur:

1.2.1. mədəni və tarixi abidələr siyahısına daxil edilən bina və qurğulara (tikililərə), məbədlərə;

*1.2.2. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 79.2-ci, 80.1-ci və 81.1-ci maddələri ilə müəyyən edilmiş tikinti obyektlərinə;*[1]

1.2.3. tikintisinə icazə tələb olunmayan tikinti obyektlərinə.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydalarda istifadə olunmuş əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. bina və qurğunun xüsusi istilik mühafizə xarakteristikası - binanın istilik mühafizə örtüyünü xarakterizə edən binanın və qurğunun istilik mühafizə örtüyündən zaman vahidində, 1ºC temperatur fərqinə uyğun, isidilən həcm vahidinin istilik enerji itkilərinə bərabər olan fiziki kəmiyyət;

2.1.2. ümumi enerji xarakteristikası - isitmə dövründə ümumi istilik itkilərini nəzərə almaqla binanın və qurğunun isidilməsi və havalandırılması üçün istilik enerjisinin xüsusi sərfi;

2.1.3. bina və qurğunun enerji səmərəliliyi sinfi - istismar müddətində binanın səmərəliliyini xarakterizə edən və istismar olunan bina və qurğunun enerji istehlakının qənaətlilik səviyyəsi;

2.1.4. bina və qurğunun enerji pasportu - mövcud olan bina və qurğuların, həmçinin bina və qurğuların və onların qoruyucu konstruksiyalarının layihələrinin enerji, istilik texnikası və həndəsi xarakteristikalarının qeyd olunduğu sənəd;

2.1.5. enerji səmərəliliyi - enerji ehtiyatlarından istifadənin effektinin həmin effektin alınması məqsədi ilə istehsal olunmuş enerji resurslarının sərfinə nisbətini əks etdirən xarakteristika;

2.1.6. enerji resurslarına qənaət edilməsi - istifadə olunan enerji resursları həcminin azaldılmasına yönəldilmiş təşkilati, texniki, texnoloji, iqtisadi və digər tədbirlərin həyata keçirilməsi.

## 3. Enerji resurslarına qənaət edilməsi və enerji səmərəliliyinin artırılması

3.1. Bina və qurğular elə layihələndirilib tikilməlidir ki, onların istismarı zamanı enerji resurslarının səmərəli istifadəsi təmin olunsun.

3.2. Bina və qurğuların layihə sənədləri işlənilərkən tələb olunan enerji səmərəliliyi sinfi, enerji resurslarına qənaət edilməsi və enerji səmərəliliyinin artırılması üzrə tələblər layihə tapşırığında göstərilir.

3.3. Bina və qurğuların layihəsində enerji resurslarına qənaət edilməsi və enerji səmərəliliyinin artırılması üzrə bölmə nəzərdə tutulmalıdır.

3.4. Layihə sənədlərinin enerji resurslarına qənaət edilməsi və enerji səmərəliliyi üzrə bölməsində aşağıdakılar nəzərdə tutulur:

3.4.1. layihələndirilən bina və qurğunun ümumi enerji xarakteristikası;

3.4.2. bina və qurğunun enerji pasportu;

3.4.3. bina və qurğunun enerji səmərəliliyi sinfi;

3.4.4. enerji resurslarına qənaət edilməsi və enerji səmərəliliyinin artırılmasına yönəldilmiş layihə həlləri haqqında məlumatlar, o cümlədən:

3.4.4.1. istilik ötürücülüyü müqavimətinin hesablanması ilə (şəffaf konstruksiyalardan başqa) qoruyucu konstruksiyaların texniki həlləri barədə məlumat, həmçinin Azərbaycan Respublikasının müvafiq normativ texniki sənədlərində qeyd olunan göstəricilərdən fərqlənən, tikinti materiallarının qəbul olunmuş hesabi istilik-fiziki göstəricilərini təsdiq edən istilik texnikası sınaqlarının keçirilməsi barədə protokollar və şəffaf konstruksiyalar üçün uyğunluq sertifikatları;

3.4.4.2. hesaba alınmış daxili havanın temperaturunu göstərməklə, aşağı mərtəbənin altında və yuxarı mərtəbənin üstündə qəbul olunmuş məkan növləri, yaşayış üçün istifadə olunan mansarda mərtəbələrinin, vestibüllərin isidilməsi və giriş qapılarının tamburlarının, lociyaların şüşələnməsi barədə;

3.4.4.3. qəbul olunmuş isitmə, havalandırma və kondisionerləşdirmə sistemləri, enerjidən səmərəli istifadə olunmasını təmin edən tənzimləmə və hesabaalma cihazları barədə məlumatlar;

3.4.4.4. binaların enerji səmərəliliyini artıran xüsusi üsullar, o cümlədən günəş enerjisinin passiv istifadə edilməsi üzrə qurğular, atılan havanın istiliyini utilizasiya edən sistemlər, soyuq zirzəmilərdən keçən istilik və isti su təchizatı borularının istilik izolyasiyası, istilik nasoslarının tətbiq olunması;

3.4.4.5. layihə həllərinin və enerji istehlakı sahəsində onların texniki-iqtisadi göstəricilərinin tikinti normalarının tələblərinə uyğunluğunun yoxlanılması.

3.5. Bu Qaydaların əlavəsindəki formaya uyğun olaraq binaların və qurğuların enerji pasportu enerji səmərəliliyinin xüsusi istilik göstəricisinin binanın qoruyucu konstruksiyalarının istilik mühafizə və xüsusi xarakteristikasının tikinti normaları ilə təyin olunmuş göstəricilərə uyğunluğunun təsdiq edilməsi üçün nəzərdə tutulmuşdur.

"Tikinti obyektlərinin enerji
səmərəliliyinin artırılması və enerji
resurslarına qənaət edilməsi üzrə
Qaydalar"a
**ƏLAVƏ**

**Binanın enerji pasportunun tərtib olunma forması**

## 1. Ümumi məlumatlar

1.1. Tərtib olunma tarixi (gün, ay, il).

1.2. Binaların ünvanı.
1.3. Layihəni hazırlayan şəxsin adı, soyadı, vəzifəsi.
1.4. Layihəni hazırlayan şəxsin ünvanı və telefonu.
1.5. Layihənin şifri.
1.6. Binanın təyinatı, seriyası.
1.7. Mərtəbələrin, seksiyaların sayı.
1.8. Mənzillərin sayı.
1.9. Sakinlərin və ya işçilərin sayı.
1.10. Tikinti sahəsində yerləşməsi (mövqeyi).
1.11. Konstruktiv həllər.

## 2. Hesabat şərtləri

| Sıra №-si | Hesabi parametrlərin adları | Parametrin işarəsi | Ölçü vahidi | Hesabi miqdarı |
|---|---|---|---|---|
| 1. | İstilik mühafizəsinin layihələndirilməsi üçün xarici havanın hesabi temperaturu | tx | 0C | |
| 2. | İsitmə dövründə xarici havanın orta temperaturu | txo | 0C | |
| 3. | İsitmə dövrünün müddəti | zis | sutka/il | |
| 4. | İsitmə dövrünün dərəcə sutkası | QS | 0C sutka/il | |
| 5. | İstilik mühafizəsinin layihələndirilməsi üçün daxili havanın hesabi temperaturu | td | 0C | |
| 6. | Çardaqda olan hesabi temperatur | tçar | 0C | |
| 7. | Yeraltı texniki mərtəbənin hesabi temperaturu | tyer | 0C | |

## 3. Həndəsi göstəricilər

| Sıra №-si | Göstərici | Göstəricinin işarəsi və ölçü vahidi | Norma üzrə miqdarı | Hesabi layihə miqdarı | Faktiki miqdarı |
|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | **6** |
| 1. | Mərtəbələr üzrə sahələrin cəmi | Am, m2 | | | |
| 2. | Yaşayış otaqlarının sahəsi | Ay, m2 | | | |
| 3. | Hesabi sahə (ictimai binalar üçün) | Ah, m2 | | | |
| 4. | Binanın isidilən həcmi | Ais, m3 | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 5. | Binanın fasadının şüşələnmə əmsalı | f | | | |
| 6. | Binanın kompaktlığı | Kkomp | | | |
| 7. | Binanın xarici qoruyucu konstruksiyalarının ümumi sahəsi m2, o cümlədən: | Axcəm, m2 | | | |
| 7.1. | fasadların | Afas | | | |
| 7.2. | divarların (konstruksiyanın növləri üzrə ayrılıqda) | Adiv | | | |
| 7.3. | pəncərə və balkon qapılarının | Ap.1 | | | |
| 7.4. | vitrajların | Ap.2 | | | |
| 7.5. | fənərlərin | Ap.3 | | | |
| 7.6. | pilləkən-lift sahələrinin pəncərələrinin | Ap.4 | | | |
| 7.7. | xarici keçidlərin balkon qapılarının | Aqapı | | | |
| 7.8. | xarici qapı və darvazaların (ayrılıqda) | Aqapı | | | |
| 7.9. | örtüklərin (yastı) | Aört | | | |
| 7.10. | çardaq örtüklərinin | Açar | | | |
| 7.11. | "isti" çardaq örtüklərinin (ekvivalent) | Açar.isti | | | |
| 7.12. | yeraltı texniki mərtəbələrin və ya isidilməyən zirzəmilərin örtüklərinin (ekvivalent) | At,m.1 | | | |
| 7.13. | keçid və ya erkerlərin örtüklərinin | At,m.2 | | | |
| 7.14. | yer səthindən aşağıda olan divarların və qruntun üstündə olan döşəmənin (ayrılıqda) | At, m.3 | | | |

**4. İstilik texniki göstəricilər**

| Sıra №-si | Göstərici | Göstəricinin işarəsi və ölçü vahidi | Norma üzrə miqdarı | Hesabi layihə miqdarı | Faktiki miqdarı |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1. | Xarici qoruyucu konstruksiyaların hesablanmış istilik ötürmə müqaviməti, o cümlədən: | Rohes, m2 0C/Vt | | | |
| 1.1. | divarların (konstruksiyanın növləri üzrə ayrılıqda) | Rheso, div | | | |
| 1.2. | pəncərə və balkon qapılarının | Rheso, p.1 | | | |
| 1.3. | vitrajların | Rheso, p.2 | | | |
| 1.4. | fənərlərin | Rheso, p.3 | | | |
| 1.5. | pilləkən-lift sahələrinin pəncərələrinin | Rheso, p.4 | | | |
| 1.6. | xarici keçidlərin balkon qapılarının | Rheso, qapı | | | |
| 1.7. | xarici qapı və darvazaların (ayrılıqda) | Rheso, qapı | | | |
| 1.8. | örtüklərin (yastı) | Rheso, ört | | | |
| 1.9. | çardaq örtüklərinin | Rheso, car | | | |
| 1.10. | "isti" çardaq örtüklərinin (ekvivalent) | Rheso, car.ist | | | |
| 1.11. | yeraltı texniki mərtəbələrin və ya isidilməyən zirzəmilərin örtüklərinin (ekvivalent) | Rgətt.m.1 | | | |
| 1.12. | keçid və ya erkerlərin örtüklərinin | Rhest.m.2 | | | |
| 1.13. | yer səthindən aşağıda olan divarların və qruntun üstündə olan döşəmənin (ayrılıqda) | Rhest.m.3 | | | |

**5. Köməkçi göstəricilər**

| Sıra №-si | Göstərici | Göstəricinin işarəsi və ölçü vahidi | Normalaşdırılan miqdarı | Hesabi layihə miqdarı |
|---|---|---|---|---|
| 1. | Binanın ümumi istilikötürmə əmsalı | Küm, Vt/(m2x0C) | | |
| 2. | Hava mübadiləsinin xüsusi normasına uyğun isitmə dövründə binanın | nh, saat-1 | | |

| | | | | |
|---|---|---|---|---|
| | hava mübadiləsinin orta misli | | | |
| 3. | Binada xüsusi məişət istilik ayırmaları | qməiş, Vt/m2 | | |
| 4. | İstilik enerjisinin tarif qiyməti | Cist, man/kVtxsaat | | |
| 5. | Tikinti ərazisində istilik şəbəkələrinə qoşulma və isitmə avadanlığının xüsusi qiyməti | Cist, man/(kVtxsaat/il) | | |
| 6. | Enerji vahidinin qənaətindən xüsusi gəlir | Ωgəl, man/(kVtxsaat/il) | | |

**6. Xüsusi xarakteristikalar**

| Sıra №-si | Göstərici | Göstəricinin işarəsi və ölçü vahidi | Normalaşdırılan miqdarı | Hesabi layihə miqdarı |
|---|---|---|---|---|
| 1. | Binanın xüsusi istilik mühafizə xarakteristikası | Küm, Vt/(m30C) | | |
| 2. | Binanın xüsusi havalandırma xarakteristikası | Khav, Vt/(m20C) | | |
| 3. | Binanın məişət istilik ayırmaların xüsusi xarakteristikası | Rməiş, Vt/(m30C) | | |
| 4. | Günəş radiasiyasından istilik daxilolmalarının xüsusi xarakteristikası | Krad, Vt/(m30C) | | |

**7. Əmsallar**

| Sıra №-si | Göstərici | Göstəricinin işarəsi və ölçü vahidi | Norma üzrə miqdarı |
|---|---|---|---|
| 1. | İsitmənin avtotənzimlənməsinin səmərəliliyi əmsalı | ζ | |
| 2. | Mənzillərdə isitmə üçün istilik enerjisinin sərfi qeydə alındıqda, yaşayış binalarında istilik istehlakının azalmasını nəzərə alan əmsal | ζ | |
| 3. | Rekuperatorun səmərəliliyi əmsalı | ksəm | |

| | | | |
|---|---|---|---|
| 4. | İstilik daxilolmasının (istilik itkilərini üstələdikdə) istifadəsinin azalmasını nəzərə alan əmsal | υ | |
| 5. | İsitmə sisteminin əlavə istilik itkilərini nəzərə alan əmsal | βh | |

**8. Enerji səmərəliliyinin kompleks göstəriciləri**

| Sıra №-si | Göstərici | Göstəricinin işarəsi və ölçü vahidi | Göstəricinin norma üzrə miqdarı |
|---|---|---|---|
| 1. | İsitmə dövründə binanın isidilməsinə və havalandırılmasına sərf olunan istilik enerjisinin xüsusi hesabi xarakteristikası | Qpisit, Vt/(m30C) [Vt/(m20C)] | |
| 2. | İsitmə dövründə binanın isidilməsinə və havalandırılmasına sərf olunan istilik enerjisinin normalaşdırılan xüsusi xarakteristikası | qisitnorm, Vt/(m30C) [Vt/(m20C)] | |
| 3. | Enerji səmərəliliyi sinfi | | |
| 4. | Binanın layihəsinin istilik mühafizəsi üzrə normativ tələblərə uyğunluğu | | |

**9. Binanın enerji yükləri**

| Sıra №-si | Göstərici | Göstəricinin işarəsi | Ölçü vahidi | Kəmiyyəti |
|---|---|---|---|---|
| 1. | İsitmə dövründə binanın isidilməsinə və havalandırılmasına istilik enerjisinin xüsusi sərfi | q | kVt saat/(m2 il) | |
| 2. | İsitmə dövründə binanın isidilməsinə və havalandırılmasına istilik enerjisinin sərfi | Qilisit | kVt saat/il | |
| 3. | İsitmə dövründə binanın ümumi istilik itkiləri | Qilüm | kVt saat/il | |
| 4. | Binada ümumi elektrik enerjisinin sərfi | Qilel | kVt saat/il | |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 19 noyabr 2015-ci il tarixli **366** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 10 dekabr 2015-ci il, № 272, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, №12, maddə 1565**)
2. 20 oktyabr 2017-ci il tarixli **462** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 oktyabr 2017-ci il, № 232, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №10 , maddə 1924**)
3. 4 iyun 2018-ci il tarixli **250** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 6 iyun 2018-ci il, № 126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 6, maddə 1349)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 19 noyabr 2015-ci il tarixli **366** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 10 dekabr 2015-ci il, № 272, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, №12, maddə 1565**) ilə "Tikinti obyektlərinin enerji səmərəliliyinin artırılması və enerji resurslarına qənaət edilməsi üzrə Qaydalar"ın 1.2.2-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~1.2.2. hündürlüyü üç mərtəbədən çox olmayan fərdi yaşayış və bağ evlərinə;~~

4 iyun 2018-ci il tarixli **250** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 6 iyun 2018-ci il, № 126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 6, maddə 1349)** ilə "Tikinti obyektlərinin enerji səmərəliliyinin artırılması və enerji resurslarına qənaət edilməsi üzrə Qaydalar"ın 1.2.2-ci yarımbəndində "**və 80.1-ci**" sözləri "**, 80.1-ci və 81.1-ci**" sözləri ilə əvəz edilmişdir.

20 oktyabr 2017-ci il tarixli **462** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 22 oktyabr 2017-ci il, № 232, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, №10 , maddə 1924**) ilə "Tikinti obyektlərinin enerji səmərəliliyinin artırılması və enerji resurslarına qənaət edilməsi üzrə Qaydaları"nın 1.2.2-ci yarımbəndində "**80-ci maddəsi**" sözləri "**79.2-ci və 80.1-ci maddələri**" sözləri ilə əvəz edilmişdir.